**“525-ci qəzet”.-**2009.-6 noyabr.-N.206.-S.4.

**Azərbaycan İslam Konfransı Təşkilatının fəal üzvü kimi**

**Elman Araslı**

## İSLAM KONFRANSI TƏŞKİLATININ YARANMASINDAN 40 İL ÖTÜR

Ölkəmizin İslam ölkələri ilə qarşılıqlı münasibətlərində 1969-cu ildə Səudiyyə Ərəbistanının təşəbbüsü ilə yaradılan, müsəlman dövlətlərinin daha böyük və təsiredici qüvvəyə malik beynəlxalq birliyi olan İslam Konfransı Təşkilatı mühüm yer tutur. Bu təşkilatla əlaqələr hələ sovet hakimiyyəti illərində Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Hacı Allahşükür Paşazadənin səyi ilə yaradılmışdı. SSRİ-nin dağılmasından sonra, 1991-ci ilin dekabrında, müstəqillik qazanmış yeni dövlətlər arasından Azərbaycan Respublikası İKT-yə üzvlük statusunu əldə edən ilk ölkə olmuşdu. Bu təşkilatda 1994-cü ildən 2006-cı ilədək ölkəmizin daimi nümayəndəsi olmaq şərəfi mənə nəsib oldu. Mənim bu vəzifəyə təyin edilməyimin məntiqi tərəfi var idi. Belə ki, İKT-nin mənzil-qərargahı Ciddədə yerləşir, mən isə Azərbaycanın səfiri qismində Səudiyyə Ərəbistanında akkreditə olmuşdum.

İKT-yə daxil olmaq və onunla əməkdaşlığı möhkəmləndirmək xarici siyasətimizdə İslam amilinin gücləndirilməsi zərurəti ilə bağlı idi. Bu vaxtlarda bəzi müsəlman dövlətləri ilə, eyni zamanda İslam maliyyə və xeyriyyəçi təşkilatları ilə əlaqələr artıq qurulmuşdu və inkişaf etməyə başlayırdı. Azərbaycan bu əlaqələrin möhkəmləndirilməsində maraqlı idi. Bu istiqamətdə işin gücləndirilməsi üçün böyük tələbatlar var idi. İKT-yə üzvlük isə bunun üçün əlavə imkanlar yaradırdı.

Bundan başqa, Ermənistan-Azərbaycan münaqişəsində ölkəmizin dəstəklənməsi istiqamətində müsəlman cəmiyyətində ictimai fikrin formalaşması üçün səylərin artırılmasına zərurət var idi. Ermənistan Yaxın Şərq ölkələrində öz diasporalarından və bu kimi digər kanalların imkanlarından istifadə edərək İslam ölkələri ilə münasibətləri qaydaya salmaq üçün böyük səy göstərirdi (bu səylər belə fəallıqla indi də davam edir). İKT-nin Ermənistan-Azərbaycan münaqişəsinə dair mövqeyinin ermənilərin xeyrinə dəyişməsi üçün çoxsaylı təşəbbüslər göstərilmişdi. Belə hərəkətlər tərəfimizdən onların qarşısını alacaq önləyici tədbirlərin görülməsini tələb edirdi.

İslam ölkələri ilə münasibətlərin inkişafına təsir edən ən önəmli hadisə, sözsüz ki, İslam dövlətləri ilə əməkdaşlığın möhkəmləndirilməsinə böyük önəm verən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1994-cü ilin iyulunda Səudiyyə Ərəbistanına tarixi səfəri olmuşdu. Dövlət başçımızın İslam cəmiyyətinin aparıcı ölkəsinə səfəri, onun İslamın iki müqəddəs şəhərinin Himayədarı kral Fahdom ben Abdel Əziz ilə səmərəli danışıqları, ümrə ziyarətinin həyata keçirilməsi xalqımızın islam dünyasına mənsubiyyətini və Azərbaycan rəhbərliyinin müsəlman dövlətləri ilə münasibətlərin inkişaf etdirilməsinə dair iradəsini nümayiş etdirmişdi.

İKT-nin fəaliyyətini səciyyələndirərkən, prezident Heydər Əliyev dünyada sülhün, təhlükəsizliyin və sabitliyin təmin edilməsində bu təşkilatın böyük xidmətlərini dəfələrlə qeyd etmiş, ölkəmizin İKT ilə əməkdaşlığının möhkəmləndirilməsinin əhəmiyyətini vurğulamışdı. O, İKT-nin Kasablankada (1994-cü il) və Tehranda (1997-ci il) keçirilən sammitlərinin iştirakçısı olmuş, dəfələrlə Bakıda bu təşkilatın rəhbərlərini qəbul edərək islam dünyasının ən mühüm problemlərini müzakirə etmişdi.

40 il ərzində İKT müsəlman ölkələrinin ən nüfuzlu beynəlxalq təşkilatına çevrilib. Bu gün o, 1.2 mlrd. əhalisi olan 57 ölkəni birləşdirir. Bundan əlavə 11 dövlət və siyasi hərəkat təşkilatda müşahidəçi qismində təmsil olunurlar.

İKT-nin beynəlxalq terrorizmə qarşı mübarizə, sivilizasiyalar arasında dialoqun həyata keçirilməsi, insan hüquqlarına nəzarət və demokratik dəyişikliklərin aparılması kimi aktual məsələlərin, həmçinin bəşəriyyəti narahat edən digər problemlərin həllində fəal iştirakı, təşkilatın məqsəd və təcrübəsini əhəmiyyətli dərəcədə dəyişdirərək, beynəlxalq nüfuzunu artırıb.

İslam Konfransı Təşkilatı 1976-cı ildən BMT-də müşahidəçi statusuna malikdir. O, ATƏT, Avropa Birliyi və digər Avropa qurumları ilə konstruktiv əlaqələr yaratmış, həmçinin Ərəb Dövlətləri Liqası, Afrika Birliyi, Qoşulmamaq Hərəkatı, İqtisadi Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq və regional təşkilatlarla sıx əməkdaşlıq edir. Son illər İKT-nin fəaliyyətinə bütün dünyada marağın artması müşahidə olunur. Məhz Rusiyanın bu təşkilatda müşahidəçi statusunu almaq cəhdləri və Amerika Administrasiyasının ABŞ-ın İKT-də xüsusi nümayəndəsinin təyin edilməsi qərarı ilə bunu izah etmək olar.

Son illərdə təşkilatın öz daxilində üzv dövlətlər arasında əməkdaşlığın genişləndirilməsi və müsəlman cəmiyyətinin beynəlxalq mövqelərinin möhkəmləndirilməsi məqsədi ilə İKT-nin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində (maliyyə təminatının yaxşılaşdırılması, struktur dəyişikliklərinin aparılması, təşkilatın işinin stil və metodlarının mükəmməlləşdirilməsi, idarə heyətinin seçilməsi prosedurlarının demokratikləşdirilməsi) bəzi layihələr həyata keçirilib. 2005-ci ildə Məkkədə keçirilən növbədənkənar sammitdə yeni vəzifələrin reallaşdırılması məqsədi ilə İKT-nin onillik planı qəbul edilib, Dakar (Seneqal, 2008-ci il) müşavirəsində təşkilatın yeni nizamnaməsi qəbul olunub.

İKT-nin tərkibində təşkilatın fəaliyyətini təmin etmək üçün çoxşaxəli ixtisaslaşmış strukturlar şəbəkəsi fəaliyyət göstərir: İslam Həmrəyliyi Fondu, təhsil, elm və mədəniyyət üzrə İslam təşkilatı, elmi araşdırmalar Mərkəzi, İslam tarixini, mədəniyyətini və incəsənətini araşdırmalar Mərkəzi, İslam Fikx Akademiyası (İslam

hüququ), İqtisadi araşdırmalar Mərkəzi, Ticarət inkişafının İslam Mərkəzi, Beynəlxalq İslam İnformasiya Agentliyi, İslam Radioverilişləri Təşkilatı və sair.

Bundan əlavə, İKT-nin birbaşa əlaqə saxladığı çoxlu sayda qeyri-hökumət təşkilatları var. Onların sırasına BMT nəzdində məsləhətçi statusuna malik olan Ümumdünya İslam Konqresini (ÜİK), EKOSOS-un birinci dərəcəli müşahidəçi statusunu almış, həmçinin UNESCO və UNİSEF-in tərkibinə daxil olmuş Ümumdünya İslam Liqasını, Ümumdünya İslam Gəncləri Təşkilatını və digərlərini aid etmək olar. Bu qurumlar İslam dünyasında ictimai fikrin formalaşmasında əhəmiyyətli rol oynayırlar və qərb ölkələrin ictimai dairələri ilə əlaqələrə malikdirlər.

Azərbaycanın İKT ilə əməkdaşlığının əhəmiyyəti hər şeydən əvvəl Azərbaycan Respublikasının xarici siyasətinin ən prioritet məsələsi olan və nizama salınması tələb edilən Ermənistan-Azərbaycan münaqişəsində təşkilatın verdiyi dəstəkdən ibarətdir. Bununla əlaqədar qeyd etmək lazımdır ki, Azərbaycan diplomatiyası İKT çərçivəsində Ermənistan-Azərbaycan münaqişəsinə dair vahid baxış formalaşdırmağa nail olub.

Xarici İşlər Nazirlərinin sammitlərində, konfranslarda və təşkilatın digər tədbirlərində bu problemə aid üç fundamental qətnamə qəbul edilib: “Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünə dair”, “Azərbaycan Respublikası ərazilərinə Ermənistan Respublikasının təcavüzü nəticəsində tarixi və mədəni abidələrin məhv edilməsinə dair” və “Azərbaycan Respublikasına iqtisadi yardımın göstərilməsinə dair”.

İKT Ermənistanı təcavüzkar kimi tanıyır, işğal edilmiş Azərbaycan ərazilərinin dərhal və qeyd-şərtsiz azad edilməsini və respublikamızın ərazi bütövlüyünün bərpasını tələb edir. İKT-nin Baş Katibliyi müntəzəm olaraq, ölkəmizin qanuni hüquqlarını dəstəkləyən və işğal olunmuş Azərbaycan torpaqlarında ermənilərin qeyri-qanuni hərəkətlərini ifşa edən siyasi bəyanatlarla çıxış edir. Hər dəfə buna ehtiyac olanda, İKT-nin Baş Katibliyi təşkilatın üzvlərinə müraciət edir və BMT-in Baş Assambleyasının sessiyalarında və beynəlxalq birliyin digər forumlarında Azərbaycanın təşəbbüslərinin dəstəklənməsi istiqamətində müvafiq işin aparılmasına dair BMT-dəki nümayəndəsinə müəyyən göstərişlər verir. Belə təşəbbüslərin effektivliyi BMT-nin Baş Assambleyasında “Azərbaycanın işğal olunmuş torpaqlarındakı vəziyyətə dair” məsələsinə baxılarkən bir daha öz təsdiqini tapıb. Məlum olduğu kimi, ölkəmizin təşəbbüsünü dəstəkləyən dövlətlərin əksəriyyəti İKT-nin üzvləri olub. İslam İnformasiya Agentliyi Dağlıq Qarabağ problemi ilə bağlı təbliğat-təşviqat xarakterli məlumatların yayılmasında müntəzəm iş aparır.

Həmçinin İKT ilə əməkdaşlığımız tərkib hissəsinə İslam dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən Azərbaycana maliyyə və humanitar yardımın göstərilməsi də daxildir. Uzun müddətdir ki, ölkəmiz sosial-iqtisadi inkişaf layihələrimizin reallaşdırılmasında iştirak edən İslam ölkələrinin müxtəlif maliyyə qurumları, ərəb inkişaf fondları və İslam İnkişaf Bankı ilə sıx əlaqələr saxlayır. İslam xeyriyyə cəmiyyətlərinin ölkəmizdə qaçqın və məcburi köçkünlərə humanitar yardımını xüsusilə qeyd etmək lazımdır. Bu köməyin hüquqi və siyasi əsasını İKT-nin “Azərbaycan Respublikasına iqtisadi yardımın göstərilməsi haqqında” adlı mötəbər qətnaməsi təşkil edir.

Diqqəti İKT-nin effektivliyinin aşağı olması və onun sırf dini təşkilat kimi təsvir edən mövcud yanlış fikirlərə yönəltmək istərdim. Əfsuslar olsun ki, bu yalnış təsəvvür mətbuatımızda da tez-tez öz əksini tapır. Bununla əlaqədar bir daha qeyd etmək lazımdır ki, İKT beynəlxalq hökumətlərarası təşkilatdır, buna görə də onun fəaliyyəti rəsmi yanaşma ilə, harada dövlət praqmatizmi konfessional təfəkkürdən üstün tutulur, ciddi şəkildə nizamlanır. Qeyd etmək vacibdir ki, bu beynəlxalq təşkilatın islam birliyi üzərində qurulmasına baxmayaraq, müsəlman dünyasının praqmatik qanadı onun dünyəvi xarakterini qoruyub saxlamaqla (İKT-yə daxil olan ölkələrin üçdə biri dünyəvi dövlətdir) təşkilatın fəaliyyətini dünyanın digər ölkələri ilə dini-siyasi qarşıdurmadan, İslam cəmiyyətinin xüsusiyyətləri nəzərə alınmaqla inkişaf edən ölkələrin maraqlarının Şimal-Cənub oxu üzrə müdafiə olunmasına yönəltmişlər.

“İslam həmrəyliyi”ni bütün qeyri-müsəlman ölkələrini təhdid edən “tarixi atavizm” kimi xarakterizə edən fikirlərlə də razılaşmaq olmaz. Bu gün “İslam həmrəyliyi” müsbət məna kəsb edir. Bu, dünya ictimaiyyətinin qeyri-müsəlman hissəsinə qarşı yönəlməyib və konsolidasiyanı dini-konfessional əsasda nəzərdə tutmaqla yanaşı, qlobal müstəvidə xoşməramlı məqsədlərə nail olmaq üçün geniş və konstruktiv əməkdaşlığa hesablanıb.

Yekunda qeyd etmək istərdim ki, son illər Azərbaycan İKT ilə əlaqələrini əhəmiyyətli dərəcədə aktivləşdirmiş və təşkilat ilə əməkdaşlıq sahələrini genişləndirib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2005-ci ildə Məkkədə İKT-nin növbədənkənar sammitində iştirak etmiş və dəfələrlə baş katib E. İhsanoğlu ilə görüşüb. Ölkəmiz təşkilatın yeni vəzifələrinə uyğun olaraq, İKT-nin işinin yenidən qurulmasına istiqamətlənmiş bütün təşəbbüsləri dəstəkləmiş və təşkilatın fəaliyyətinin effektivliyinin artırılması ilə bağlı bir sıra təkliflərlə çıxış edib. Bu istiqamətdə əhəmiyyətli tədbir kimi 2006-cı ildə Bakıda keçirilmiş İKT-yə üzv dövlətlərin Xarici İşlər nazirlərinin 33-cü konfransı və orada respublikamızın başçısının çıxışını göstərmək olar.

Əlbəttə, İKT ilə əsas iş xarici siyasi qurum vasitəsilə həyata keçirilir. Bununla əlaqədar, ölkəmizin maraqlarını uğurla təmin edən Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin fəal işini qeyd etmək istərdim. İKT və onun ixtisaslaşmış təşkilatları ilə əməkdaşlığa digər dövlət, qeyri-dövlət strukturları da – Milli Məclis, Mədəniyyət və Turizm Nazirliyi, Gənclər və İdman Nazirliyi, Heydər Əliyev adına Fond – cəlb olunub. Son vaxtlar Azərbaycanda islam ölkələrinin Mədəniyyət və Turizm nazirlərinin konfransı keçirilib. Bakı şəhəri cari il üçün İslam mədəniyyətinin paytaxtı elan olunub. Bununla əlaqədar, ölkəmizdə Mərakeş, İordaniya və Misirin mədəniyyət günləri və həftəsi, İslam mədəniyyəti, incəsənəti və digər məsələlər üzrə elmi simpoziumlar keçirilib. Cari ilin noyabr ayında isə paytaxtımızda İKT-nin 40 illik yubileyinə həsr olunmuş “Sivilizasiyalararası dialoq:

Azərbaycandan baxış” beynəlxalq konfrans baş tutacaq.

Konfransın iştirakçılarına və təşkilatçılarına ən səmimi arzularımı ifadə edərək, Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərini 2014-cü ildə dövlət və hökumət başçılarının konfransının keçirilməsi üçün yer kimi və İKT-nin rəhbər işçilərinin növbəti seçkilərində təşkilatın Baş Katibinin müavini postuna ölkəmizin namizədinin irəli sürülməsini təklif edirəm.

**Elman ARASLI,**
**Azərbaycan Respublikasının İordaniya və İraqdakı səfiri**